Aprelin 9-da Sabunçu rayonu Kürdəxanı qəsəbəsindəki 336 və Suraxanı rayonu Bülbülə qəsəbəsindəki 330 saylı uşaq bağçalarının açılış mərasimi keçirilib.

Öncə Kürdəxanı qəsəbəsindəki 336 saylı uşaq bağçasında rəmzi açılışı bildirən qırmızı lent kəsilib, təhsil naziri Misir Mərdanov və digər qonaqlar bu tərbiyə müəssisəsi ilə yaxından tanış olublar. Bağçanın müasir mebel və digər avadanlıqlarla təmin olunmasından, ümumilikdə yaradılan yüksək şəraitdən razılığını ifadə edən nazir bu işdə əməyi olan şəxslərə təşəkkürünü bildirib. Nazir xüsusilə diqqətə çatdırıb ki, qeyd olunan sahə ölkə Prezidenti cənab İlham Əliyevin və onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın diqqət mərkəzindədir.

Mərasimdə məlum olub ki, qəsəbədə yeganə məktəbəqədər tərbiyə müəssisəsi olan bu bağça 120 uşağı əhatə edəcək, onların tərbiyəsi ilə isə 12 tərbiyəçi məşğul olacaq. Təhsil naziri Misir Mərdanov bağçanın pedaqoji kollektivini, kiçik sakinləri yeni binanın açılışı münasibətilə təbrik edib, eləcə də bağçanın rəy və təkliflər kitabına ürək sözlərini yazıb.

Elə həmin gün Bülbülə qəsəbəsindəki 330 saylı körpələr evi-uşaq bağçasının da açılışı olub. Nazir müasir standartlara uyğun inşa olunmuş və avadanlıqlarla təchiz edilmiş bu tərbiyə ocağında pedaqoji kollektivin apardığı məzmunlu tərtibat işlərindən də razı qalıb, bağçanın rəhbərliyinə müəssisəni bu səviyyədə saxlamağı tövsiyə edib.

Mərasimdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbər işçiləri, rayon icra hakimiyyətlərinin nümayəndələri, qəsəbələrin bələdiyyə sədrləri iştirak edib.